https://doi.org/10.36719/2706-6185/41/93-97

**Püstə Əhmədova**
Naxçıvan Dövlət Universiteti
pusteehmedova@yahoo.com
https://orcid.org/0009-0005-7857-4359

# Azərbaycan poeziyasında Məmməd Araz obrazı

**Xülasə**

Məmməd Araz şeirlərindəki incə duyğular, kədər, sevgi və ümid, insanın həyatda qarşılaşdığı çətinlikləri poetik dillə əks etdirir. Onun obrazı, yalnız bir şairin deyil, həm də insan psixologiyasını dərk edən bir fəlsəfi insan obrazı kimidir. Məmməd Araza həsr olunan əsərlərdə, onun vətən sevgisini daha da gücləndirir. Məmməd Arazın obrazı milli və insan ruhunun dərinliyini birləşdirən bir simadır. Onun yaradıcılığı, yalnız ədəbiyyat sahəsində deyil, eyni zamanda Azərbaycan mədəniyyətinin formalaşmasında da mühüm rol oynayır. Şairin vətənə olan sevgisi və insanlığa dair dərin düşüncələri ilə bugünkü nəsillərə ilham verməyə davam edir. Məmməd Araz Azərbaycan poeziyasının parlaq simalarından biri olaraq, öz yaradıcılığı ilə bir çox şairin və yazıçıların ilham mənbəyi olmuşdur. Onun xatirəsi ədəbiyyatımızda hələ də yaşayır və bir çox şair, onun ruhunu yaşatmaq üçün ona həsr olunmuş şeirlər yazmışdır.

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, Məmməd Araz, obraz, əsər, poeziya, yaradıcılıq*

**Pusta Ahmadova**
Nakhchivan State University
pusteehmedova@yahoo.com
https://orcid.org/0009-0005-7857-4359

# The Image of Mammad Araz in Azerbaijani Poetry

**Abstract**

The gentle emotions, some love and hope in Mammad Araz's poems reflect the events in a person's life in a poetic language. His image is not only that of a poet, but also that of a philosopher who understands human psychology. In the works dedicated to Mammad Araz, it strengthens his love for the homeland. The image of Mammad Araz is a face that combines the depth of the national and human spirit. His creativity plays an important role not only in the field of literature, but also in the formation of Azerbaijani culture. The poet's deep thoughts about humanity continue to inspire today's generations. Mammad Araz, as one of the bright figures of Azerbaijani poetry, has been a source of inspiration for many poets and writers with his creativity. His memory lives on in our literature and many poets wrote poems dedicated to him to keep his spirit alive.

***Keywords:*** *Azerbaijani literature, Mammad Araz, image, work, poetry, creativity*

## Giriş

Azərbaycan ədəbiyyatında Əfzələddin Xaqanidən başlayaraq, Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin, İmaddin Nəsiminin, Molla Pənah Vaqifin və başqa ədiblərimizin möhtəşəm obrazları yaradılmışdır. Bu obrazlar hər üç növdə − həm lirik, həm epik, həm də dramatik növdə yaradılmışdır. Böyük sənətkarlarımızın obrazı daha çox poeziya nümunələrində canlandırılıb. Qətiyyətlə deyə bilərəm ki, Azərbaycan poeziyasında Məmməd Araza həsr olunan obrazı canlandırılan poeziya nümunələri qədər heç bir sənətkara bu qədər poeziya nümunələri ilə qarşılaşmadım (Mehdiyev, 2000, s. 213). Məmməd Araz Azərbaycan ədəbiyyatında əhəmiyyətli bir sima olaraq, özünəməxsus obrazı ilə tanınır. Məmməd Araz, Azərbaycan poeziyasının parlaq simalarından biri olaraq, öz yaradıcılığı ilə bir çox şair və yazıçıların ilham mənbəyi olmuşdur. Onun xatirəsi, ədəbiyyatımızda hələ də yaşayır və bir çox şair, onun ruhunu

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

yaşatmaq üçün ona həsr olunmuş şeirlər yazmışdır. Bu şeirlərdə vətən sevgisi və azadlıq idealları ön planda durur. Kamil insanın başlıca mənəvi dəyəri onun düşdüyü mühit və şəraitdən asılı olmayaraq əxlaqlı və halal yaşamağındadır (Kərimli, 2013, s. 20). Şairlər, Arazın yaradıcılığındakı Vətən mövzusunu öz əsərlərində yeni bir tərzdə işləyərək, onun ideyalarını davam etdirirlər. Vətənə olan həsrət, müharibə dövrü xatirələri və milli kimlik mövzuları, bu şeirlərin əsas məzmununu təşkil edir və sənətkarlar Məmməd Arazın daxili aləmini, kədərini və sevinclərini öz əsərləri ilə ifadə etməyə çalışırlar (Xəlilov, 2002, s. 256).

M.Arazın həyatında yaşadığı çətinliklər, eyni zamanda onun yaradıcılığında ortaya çıxan dərin hissiyat, bu şeirlərdə gözəl bir şəkildə təcəssüm etdirilir. Məmməd Araza həsr olunmuş şeirlər, onun ədəbiyyatdakı təsirini və əhəmiyyətini bir daha nümayiş etdirir. Bu şeirlər, yalnız onun xatirəsini yaşatmaqla qalmır, eyni zamanda Azərbaycan ədəbiyyatının zənginliyini və dərinliyini də əks etdirir. Arazın ruhu, bu şeirlər vasitəsilə yeni nəsillərə ötürülür. Elə sənətkarlar var ki, onlar M. Arazın poetik dünyasında ayrıca bir dünyadırlar (Yusifli, 1994, s. 106).

Bu nümunələrlə tanış olanda Məmməd Araz qüdrəti, səmimi ürəkdən gələn lirizm insanı Məmməd Araz dünyasına qərq edir. Məmməd Arazın əsərlərini oxuyanda insan fəqli bir aləmdə özünü hiss edir. Yeni uçmağı öyrənən quş kimi uçmağın fövqünə qərq olur, dünyanı unudur. Azərbaycan ədəbiyyatında Məmməd Araza yüzlərlə şeir həsr olunub, obrazı yaradılıb (Araz, 2003, s. 387).

**Tədqiqat**

Milvarid Dilbazi "Məni təkləməyən deyən şairə", Söhrab Tahir "Qardaşım", Xəlil Rza Ulutürk "Məmməd Araza", Fikrət Qoca "Cavanlıq dostum Məmməd Araza məktub", Məmməd İsmayıl "Unut məni", Musa Yaqub "Nə qədər ki…", "Bu dünyanın qara daşı göyərməz", Aşıq Şəmkir "Şairin", Nəriman Həsənzadə "Sevir bu dünyanı bu etirasla", Ramiz Rövşən "Araz danışır", Hüseyn Razi "Dünya", "Hünər ölməz söz qocalmaz", Zəlimxan Yaqub "Məmməd Araz var", Asim Yadigar "Bir nağıl de", Hikmət Ziya "Məmməd Araz var", Xanəli Kərimli "Toğluqayanın Məmməd Araza məktubu", Hüseyn Arif "Birazda bizə saxla", Vaqif Məmmədov "Məmməd Araz var", "Arazlar nə yaman sözlü oturub", Azəroğlu "Məmməd Araza məktub" və başqalarının şeirləri var. Məmməd Araz yaradıcılığı Azərbaycan xalqının poetik dünyasıdır (Axundlu, 1998, s. 97).

Azərbaycan poeziyasında Məmməd Arazın möhtəşəm obrazını yaradan, onu öz əsərlərinin mündəricəsinə çevirən qüdrətli şairlərimizdən biri olan Xəlil Rza Ulutürkün şeirləri özünəməxsus cəhətləri ilə seçilir. "Məmməd Araza" adlı şeiri kiçik poema təsiri bağışlayır. Şeirdə Məmməd Arazın zəhməti, xalqı üçün çırpınan istəkləri misralarda əks olunur. Öz yaradıcılığının məzmunluğu, yeniliyi və xüsusilə milliliyi ilə seçilən Xəlil Rza Ulutürkün ədəbi irsində, ümumən, Azərbaycanın qüdrətli söz ustadlarına müraciətlə yazılan əsərlər çoxluq təşkil edir ki, onlardan biri də "Məmməd Araza" adlı şeiridir. Şeirdə Məmməd Araz qüdrəti əks olunur.

Mən səni görmüşəm, tunc yumruqların
Yerlərə, göylərə hökm eyləyəndə,
Qarlı Ərzurumdan əngin Xəzərə
Can atan, hayqıran Araz axarı
Sənin ürəyindən yol istəyəndə! (Quliyev, 2001, s. 72)

Milvarid Dilbazinin də yaradıcılığında Məmməd Araz ön sırada dayanır. Onun Məmməd Araza həsr etdiyi "Məni təkləməyin deyən şairə" şeirində M.Arazın yaradıcılığına və onun Vətənə olan sevgisinə dərin bir ehtiramla yanaşdığı ifadə edir.

Şeirdə Arazın mübariz ruhu, şairin söz sənətindəki ustalığı və Vətəni sevgi dolu bir dil ilə təsvir olunur. Dilbazi, Arazın poeziyasından ilhamlanaraq, onun azərbaycanlıların qəlbindəki yerini və əhəmiyyətini vurğulayır.

Sən vətən havalı, el nəfəslisən,
Sənət dünyasında bahar fəslisən.
Nizami, Füzuli, Vaqif nəslisən
Ilhamın yollarda yorula bilməz (Quliyev, 2001, s. 69)

Bu şeir, yalnız Arazın xatirəsini yaşatmaqla yanaşı, onun yaradıcılığının müasir dövrdə necə qiymətləndiyini də ön plana çıxarır. Xalq şairi Azəroğlunun "Məmməd Araza məktub" adlı şeiri də

özünəməxsusluğu ilə seçilir. Məmməd Arazın misralarını epiqraf kimi istifadə edən şair Məmməd Araza xitabən

Oxudum şeirini, kövrəldim yaman,
Belə niskil olmaz, belə dərd olmaz.
Ürək deyənləri necə yazmasın!
Ürək yaman şeydir, ay Məmməd Araz!
Ürək min söz deyir hey yavaş-yavaş,
Yüzündən birini yazmırıq ancaq,
Mənim də arzumdur səninlə, qardaş,
Ərdəbildə olaq, Təbrizdə olaq… (Quliyev, 2001, s. 120).

Söhrab Tahirin “Qardaşım” adlı şeiri də Məmməd Arazın xatirəsinə həsr olunmuşdur. Şeirdə Arazın düşüncələri və insanlığa olan sevgisi vurğulanır, milli dəyərlərə bağlılığı qeyd olunur. Şeirdəki emosional dərinlik, Arazın itirilməsi ilə bağlı hiss edilən kədəri, eyni zamanda onun irsinin yaşatmaq arzusunu əks etdirir.

Xoşbəxt taleyin var, taleyi dindir,
Yox, onu yaşamaq mənə çətindir.
Budur azadlığın yolunda indi
Çıxmışam mən yola, qardaşım! (Quliyev, 2001, s. 99).

Hüseyn Arifin Məmməd Araza həsr etdiyi “Bir az da bizə saxla” şeiri, dərin emosional yüklə dolu bir əsərdir. Şair bu şeirdə insanın iç dünyasını, duyğularını və həyatın mənasını araşdırır. Məmməd Arifin istifadə etdiyi dil, səmimi və içtənidir. Şeirin sadə, lakin təsirli ifadələri, oxucu ilə birbaşa emosional əlaqə yaradır.

Çinarı elə andın,
Təbiət dilə gəldi.
Kərəmə elə yandın,
Məhəbbət dilə gəldi.
Babəki baba sandın
Cəsarət dilə gəldi.
Tarixlərə dönəndə
Nəsillərin önündə
Elə çal, elə çağır,
Bir az da bizə saxla! (Quliyev, 2001, s. 28)

"Biraz da bizə saxla" ifadəsi, bir yandan həyatda dəyərlərin saxlanılması, digər yandan isə xatirələrin qorunması simvolu olaraq çıxış edir. Bu, oxucuda dərin düşüncələr yaratmağa imkan tanıyır.

Xanəli Kərimlinin “Tofluqayanın Məmməd Araza məktubu” şeiri dərin düşüncələr və emosiyalarla dolu bir əsərdir. Bu şeirdə Şair M. Arazla emosional bir bağ qurur.

Ürəyimi bir söz yaman yandırır,
Sən dediyin söz yaman yandırır:
“Gecikmişəm, Məmməd Araz,
Yəqin dağlar küsüb məndən
Sən mənim tarımsan, köklənmiş sazım,
Mən səndən küsmərəm, Məmməd Arazım (Quliyev, 2001, s. 95)

Şeirdə dostluq, qardaşlıq və insan əlaqələrinin əhəmiyyəti önə çıxır və insanın ruhunu zənginləşdirən bir amil kimi təqdim olunur.

Fikrət Qocanın “Cavanlıq dostum Məmməd Araza məktub” adlı şeirində Fikrət Qoca, Arazın sözlərinin və fikirlərinin necə dərin iz buraxdığını ifadə edir.

Ucaldandır, taxtdan salan dünyadı,
Könül qıran, könül alan dünyadı,
Sən dedin ki, “dünya yalan dünyadı”
Bu yalandan yazdığımız qalandı (Vəliyeva, 2013, s. 75).

Ramiz Rövşənin "Araz danışır" seirində şairin içindəki duyğular – həsrət, sevgi, kədər şeirdə açıq şəkildə əks olunur. R.Rövşən, bu duyğuları gözəl poetik dil ilə təqdim edir. Ramiz Rövşənin dili, sadə və anlaşıqlı bir üslubdadır, lakin eyni zamanda poetik dərinliklə zəngindir. Bu, oxucunun şeirlə daha sıx emosional əlaqə qurmasına imkan tanıyır.

Biz yatırıq, Araz yatır,
Yox-yox Araz oyaq olur.
Araz indi aramızda
Özü boyda torpaq olur.
Iki bölür dalğaları,
Iki bölür suları da.
Balıqlar da ayrı düşür
O yarıda, bu yarıda (Quliyev, 2001, s. 55).

Araz, yalnız bir coğrafi obyekt deyil, eyni zamanda insan ruhunun, vətən sevgisinin və azərbaycanlıların kimliyinin simvoludur. Şeir, Arazın simvolik təhlili ilə zənginləşdirilmişdir. Ramiz Rövşənin "Araz Danışır" şeiri, vətən sevgisini, tarixi irsi və insan duyğularını dərin bir şəkildə ifadə edir. Bu əsər, Arazın səsi vasitəsilə Azərbaycanın mədəniyyətinin, ruhunun və gözəlliklərinin yaşadılmasına çağırış edir (Araz, 2003, s. 201). Rövşənin poetik dili, bu şeiri Azərbaycan poeziyasının dəyərli nümunələrindən birinə çevirir. Müasir oxucu tərəfindən ən oxunaqlı, ən çox sevilən şairlərdən olan Məmməd Arazın yaradıcılığı rəngarəng və təkrarsızdır. Məmməd Araz poeziyasının bu qədər şirinliyi və ecazkar qüvvəyə malik olması, ilk növbədə, duyduğu, yaşadığı gözəlliklərin xalq ilə təmasından qaynaqlanmış, xalq yaradıcılığı süzgəcindən keçərək ələnmiş, arıdılmış duyğu düzümündə təqdim olunması ilə əlaqədardır (Muradoğlu, 2013, s. 24).

## Nəticə

Bu şeirlər, Məmməd Araza olan dərin sevgi və ehtiramı, onun irsinin əhəmiyyətini vurğulayır. Hər biri Məmməd Araz yaradıcılığına olan təsiri ilə bərabər, onun ədəbiyyatımızdakı yerini bir daha xatırladır. Məmməd Araz obrazı, Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan bir obrazdır. Bu obrazın ideya-bədii xüsusiyyətləri vətənə olan dərin sevgisi və bağlılığı ilə seçilir. Məmməd Araz, mübariz bir ruhu təmsil edir. O, ədalət, azadlıq və insan hüquqları uğrunda mübarizə edən bir obraz kimi tanınır.

Arazın iç dünyası, emosional zənginliklərlə doludur. O, sevgi, həsrət, kədər və sevinc kimi müxtəlif duyğuları dərindən yaşayır və ifadə edir.

M. Araz poetik dili və söz ustalığı ilə diqqət çəkir. Onun şeirlərində metaforalar, simvolizm və təsvir vasitələri ustalıqla işlənir və insanın daxili aləmini, onun hisslərini və münasibətlərini tədqiq edir. Bu, oxucularla dərindən bir emosional əlaqə yaradır. Azərbaycanın mədəni irsini yaşatmağın və qorumanın əhəmiyyətini vurğulayır. O, milli kimliyin gücləndirilməsinə yönələn fikirlər irəliləyir.

Məmməd Araz obrazı həm də bir mübariz, həm vətən sevgisi ilə dolu bir insan obrazı kimi tanınır. Onun ideya-bədii xüsusiyyətləri, Azərbaycan ədəbiyyatında dərin izlər buraxmışdır. Bu, onun yaradıcılığının zamansız olduğunu və müasir dövrdə də aktual qaldığını göstərir.

## Ədəbiyyat

1. Araz, M. (2003). *Seçilmiş əsərləri*. 4 clddə. I cild. Ozan.
2. Araz, M. (2003). *Seçilmiş əsərləri*. 4 cilddə. II cild. Ozan.
3. Axundlu, Y. İ. (1998). *İstiqlal şairləri*. Elm.
4. Xəlilov, Ə. (2002). *Məmməd Araz dünyası*. Azərbaycan Universiteti.
5. Kərimli, X. (2013). Məmməd Araz yaradıcılığında azərbaycançılıq. *Naxçıvan*, 27.
6. Quliyev, H. C. (2001). *Haqqın var yaşamağa, haqqın var, Məmməd Araz* (xatirələr, ithaflar). Nurlan.
7. Mehdiyev, H. (2000). *Çağdaş poema və gerçəklik*. Elm.

8. Muradoğlu, N. (2013). *Sözün Məmməd Araz zirvəsi* (şair və xalq yaradıcılığı problemi). Elm və təhsil.
9. Vəliyeva, S. (2013). *Haqqın var yaşamağa* (məqalələr). "OL" MMC.
10. Yusifli, V. (1994). *Məmməd Araz dünyası: Şur.*

Daxil oldu: 24.09.2024
Baxışa göndərildi: 13.10.2024
Təsdiq edildi: 17.11.2024
Çap olundu: 30.11.2024